ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

ARMENIANS TRY TO STEAL HISTORICAL MONUMENTS ON THE TERRITORY OF NAGORNO-KARABAKH

Kamal Salayev [1]

UDC 719.
KBT 91.9:79

Keywords:

Azerbaijan,
Nagorno-Karabakh,
Georgia
Historical monuments
Churches
Georgian monuments
Armenian Falsification

ABSTRACT

The article examines the deliberate falsification of historical monuments in the territory of Nagorno-Karabakh, as well as in the territory of Georgia. It should be noted that Armenia, carrying out its aggressive policy throughout the history, purposefully occupied the lands of the people of the Congo - Azerbaijan and Georgia, tried to steal the ancient historical cultural monuments on these lands and take them to their names. Armenians deliberately changed the stones belonging to historical monuments in the territory of Nagorno-Karabakh, tried to replace them with stones with fake armenian inscriptions, thereby falsifying each stone our monuments, which tell of our ancient history. From this point of view, the discovery of a fake history-producing shop in Kalbajar can be particularly noted. At the same time, the article also examines the deliberate abduction of Georgian monuments by armenians. Thus, there are many examples of erasing and destroying traces of Georgian origin in Georgian temples and monasteries of armenians. In the XIX century, Velichko noted that armenians had unscrupulous looted historical and archaeological monuments belonging to Georgians, erased Georgian inscriptions from monuments, forged a false history from them, tried to write Georgian monuments as ancient armenian monuments. Ilya Chavchavadze, in his 1902 book "Armenian scientists and crying stones" published in Tbilissi (Georgia), spoke about the fact that Armenian lies "set foot" in Russia, Europe and the Caucasus in the 19th century, and their so-called "Great Armenia" claims. Ilya Chavchavadze notes that armenians have been declaring to the whole world, for centuries, that there is a country called Armenia, from the Caucasus Mountains to the mouth of the Euphrates and Tigris rivers, and swearing falsely about it. Armenians call these places Samkhet, or rather the country of somex-haykan (armenians).

[1]. ANAS, Institute of the Caucasian Studies
kamalsalayev1988@gmail.com
Received: 21.04.2021
Accepted: 07.06.2021

ERMƏNİLƏR DAĞLIQ QARABAĞ ƏRAZİSİNDƏKİ TARİXİ ABİDƏLƏRİ OĞURLAMAĞA CƏHD EDİR

Kamal Salayev[1]

UOT 719.
KBT 91.9:79

Açar sözlər:

Azərbaycan
Dağlıq Qarabağ
Gürcüstan
Tarixi abidələr
Kilsələr
Gürcü abidələri
Erməni saxtakarlığı

ANNOTASİYA

Məqalədə Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki, həmçinin, qonşu Gürcüstan ərazisindəki tarixi abidələrin ermənilər tərəfindən qəsdən saxtalaşdırılması tədqiq olunur. Qeyd etmək lazımdır ki, Ermənistan tarix boyu öz təcavüzkar siyasətini həyata keçirərək qonşu xalqların - Azərbaycanın və Gürcüstanın torpaqlarını məqsədyönlü şəkildə işğal etmiş, həmin torpaqlardakı qədim tarixi mədəniyyət abidələrini oğurlayaraq öz adlarına çıxarmağa çalışmışdır. Ermənilər qəsdən Dağlıq Qarabağ ərazisindəki tarixi abidələrə məxsus olan daşları dəyişərək, onları üzərində saxta erməni yazıları olan daşlarla əvəz etməyə çalışmış, bununla da hər daşı qədim tariximizdən xəbər verən abidələrimizi saxtalaşdırmağa çalışmışlar. Bu baxımdan Kəlbəcərdə saxta tarix istehsal edən sexin aşkar olunmasını xüsusilə qeyd etmək olar. Bununla yanaşı, məqalədə həmçinin, gürcü abidələrinin ermənilər tərəfindən qəsdən oğurlanması tədqiq olunur. Belə ki, ermənilərin gürcü məbədlərində və monastırlarında gürcü mənşəli izləri silməsinə və məhv etməsinə dair çoxlu misallar qeyd etmək olar. XIX əsrdə Veliçko, ermənilərin gürcülərə məxsus tarixi-arxeoloji abidələri vicdansız şəkildə taladığını, abidələrdən gürcü yazılarını sildiklərini, özlərindən saxta tarix uydurduqlarını, gürcü tarixindən xəbər verən abidələri qədim erməni abidələri kimi qələmə verməyə çalışdıqlarını qeyd etmişdir. İlya Çavçavadze 1902-ci ildə Tiflisdə nəşr olunan “Erməni alimləri və ağlayan daşlar” adlı əsərində, hələ XIX əsrdə erməni yalanlarının Rusiyada, Avropada və Qafqazda “ayaq açdığından”, onların uydurma “Böyük Ermənistan” iddialarından bəhs etmişdir. İlya Çavçavadze qeyd edir ki, ermənilər bütün dünyaya, guya əsrlər boyu Qafqaz sıra dağlarından Fərat və Dəclə çaylarının mənsəbinədək Ermənistan adlanan ölkə olduğunu bəyan edir və bu barədə yalandan and içirlər. Ermənilər həmin yerləri Samxeti, daha doğrusu somex-haykanların (ermənilərin) ölkəsi adlandırırlar.

---

[1]. AMEA, Qafqazşünaslıq İnstitutunun Gürcüstanşünaslıq şöbəsinin mütəxəssisi
kamalsalayev1988@gmail.com
Məqalə redaksiyaya daxil olmuşdur: 21.04.2021
Təkrar işlənməyə göndərilmişdir: 09.05.2021
Çapa qəbul edilmişdir: 07.06.2021

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 2, Say 2, Sıra 4, 2021, 72-79

АРМЯНЕ ПЫТАЮТСЯ УКРАСТЬ ИСТОРИЧЕСКИЕ ПАМЯТНИКИ НА ТЕРРИТОРИИ НАГОРНОГО КАРАБАХА

Камал Салаев[1]

УДК 719.
KBT 91.9:79

Ключевые слова:

Азербайджан
Нагорный Карабах
Грузия
Исторические памятники
Церкви
Грузинские памятники
Армянская подделка

АННОТАЦИЯ

В статье исследуется преднамеренная фальсификация армянами исторических памятников на территории Нагорного Карабаха, а также на территории соседней Грузии. Следует отметить, что Армения на протяжении всей истории, проводя свою агрессивную политику, целенаправленно оккупировала земли соседних народов - Азербайджана и Грузии, похитила и попыталась присвоить древние памятники истории и культуры на этих землях. Армяне намеренно меняли камни, принадлежащие историческим памятникам на территории Нагорного Карабаха, пытаясь заменить их на камни с фальшивыми армянскими надписями, тем самым фальсифицируя каждый камень, рассказывающий о нашей древней истории. С этой точки зрения можно особо отметить открытие в Кяльбаджаре цеха по производству поддельной истории. Наряду с этим, в статье также рассматривается умышленное похищение армянами грузинских памятников. Так, можно отметить множество примеров того, как армяне стирали и уничтожали следы грузинского происхождения в грузинских храмах и монастырях. Величко отметил, что в XIX веке армяне нечестно грабили принадлежащие грузинам историко-археологические памятники, стирали с них грузинские надписи, выдумывали себе фальшивую историю, пытались запечатлеть памятники, рассказывающие о грузинской истории, как древние армянские памятники. Илья Чавчавадзе в своей работе "Армянские ученые и плачущие камни", изданной в 1902 году в Тбилиси, еще в XIX веке говорил о том, что армянская ложь "вскрылась" в России, Европе и на Кавказе, об их вымышленных претензиях на "Великую Армению". Илья Чавчавадзе отмечает, что армяне заявляют всему миру, что Армения - страна, которая якобы веками простиралась от гор Кавказского хребта до рек Евфрат и Тигр, и клянутся в этом во лжи. Армяне называют эти места Самхетом, а точнее Сомех - страной хайканов (армян).

[1]. НАНА, Институт кавказоведения
kamalsalayev1988@gmail.com

GİRİŞ

Cənubi Qafqazın yerli əhalisi olmayan ermənilər tarix boyu qonşularının - Azərbaycanın və Gürcüstanın ərazilərinin hesabına özlərinə məskən salmış, həmin ərazilərdə yerləşən tarixi-mədəniyyət abidələrini mənimsəməyə çalışmışlar. Bu məqsədlə erməni "alim" və "tədqiqatçıları" uydurma əsərlər yazmış, dövriyyəyə buraxmış, daha sonra isə həmin əsərlərdən təbliğat vasitəsi kimi istifadə etməyə çalışmışlar. Erməni dairələri bu işə digər millətlərdən olan tədqiqatçıları da cəlb etmişlər.

Ermənistanın Azərbaycana qarşı yürütdüyü terror siyasəti elmi, mədəni, mənəvi və sosial sahələri əhatə etmişdir. Qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycana qarşı apardığı işğal siyasətinin fəsadları torpaqlarımızın işğal olunması və oradakı tarixi-mədəni abidələrimizin ermənilər tərəfindən oğurlanması ilə nəticələnmişdir. Bu baxımdan milli mənəvi dəyərlərimizin ermənilər tərəfindən məhv edilməsi, məqsədyönlü şəkildə erməniləşdirilməsi müşayiət olunmuşdur. Buna sübut olaraq, Füzuli şəhərində yerləşən, dünyanın nadir milli sərvətlərindən hesab olunan Azıx mağarasının erməni işğalçıları tərəfindən bir müddət silah anbarına, müəyyən dövrdə isə əsgərlərin təlim məşqlərinin keçirildiyi yerə çevrildiyini qeyd etmək olar [1]. Erməni vandalizmi hər zaman Azərbaycanın tarixi abidələrinə qarşı münasibətdə özünü qabarıq şəkildə göstərmişdir. Ermənilər nəinki Azərbaycana məxsus olan zəngin sərvəti ələ keçirmək, həmçinin, tariximizi də mənimsəməkdən ötrü tarixi abidələrimizin üzərindəki qədim yazıları silərək onları erməni yazıları ilə əvəz etmişlər.

Ermənilər oxşar ssenarini gürcü abidələrinə də tətbiq etmişlər. Bu baxımdan XIX əsrdə Veliçko, gürcülərin tarixi-arxeoloji abidələrinin ermənilər tərəfindən talan olunduğunu, abidələrdən gürcü yazılarının silindiyini, qədim kilsələrin zəbt edildiyini, tarixin saxtalaşdırıldığını, hər bir daşı gürcü çarlığından xəbər verən abidələrin qədim erməni abidəsi kimi qələmə verildiyini qeyd etmişdir [2]. Digər bir müəllif, görkəmli gürcü ziyalısı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində yaşayıb-yaratmış, "millətin atası" hesab olunan knyaz İlya Çavçavadze [3] 1902-ci ildə Tiflisdə nəşr etdirdiyi "Erməni alimləri və ağlayan daşlar" adlı əsərində hələ XIX əsrdə erməni yalanlarının bütün Rusiya, Avropa, Qafqazda "ayaq tutub yeridiyindən", həmçinin, onların uydurma "Böyük Ermənistan" iddialarından bəhs etmişdir. Çavçavadze, ermənilərin əsrlər boyu Qafqaz sıra dağlarından Fərat və Dəclə çaylarının mənsəbinədək Ermənistan adlanan ölkə olduğuna dair yalandan and içdiklərini, bütün dünyaya car çəkdiklərini qeyd etmişdir.

1836-cı ildə Alban Patriarxal kilsəsi ləğv olunaraq onun mülkləri erməni Qriqoryan kilsəsinin tabeçiliyinə verilmişdir. Bu hadisədən sonra isə keçmiş Alban dövlətçiliyi və dini öz müstəqilliyini itirmiş, həmin yerlərin əhalisinin isə qriqoriyanlaşdırılması, yəni erməniləşdirilməsi prosesinə başlanılmışdır. Həmin hadisə Cənubi Qafqazda xristian dövrü mədəni dəyərlərinin məhv edilməsi və ya erməniləşdirilməsi ilə nəticələnmişdir. Bu baxımdan Alban dövrünün tikililərindən sayılan, Laçın rayonunun Kosalar kəndi yaxınlığında yerləşən, IV-IX əsrlərə aid olan Ağoğlan məbədini misal olaraq göstərmək olar. Daxili həcmi üç hissədən ibarət olan monastırın binası məharətli konstruktiv həllinin olmasına görə fərqlənir. Ağoğlan məbədinin ermənilər tərəfindən mənimsənilməsinə başlanılması, 1992-ci ildə Laçın rayonunun Ermənistan tərəfindən işğal olunmasından sonra baş vermişdir. Ermənilər məbədi Ağoğlan abidəsini təmir etmək bəhanəsi ilə məbədin üzərindəki daş yazılarını, alban dövründən xəbər verən ornament və rəmzləri tamamilə silərək formalarını dəyişdirmişlər. Ermənilər hazırladıqları 26 yazı lövhəsini abidənin müxtəlif yerlərinə bərkidərək məbədin guya xristianlığın qriqoryan məzhəbinə məxsusluğunu sübut etməyə çalışmışlar.

Saxtakarlıqları ilə ad çıxaran ermənilər, İrəvandan gətirilmiş xaç daşlarını kompleksin ümumi giriş qapısının önündə basdıraraq, binanın fasadını söküb dəmir və kirəmidlə əvəz etmişlər. 2007-ci ildə Ermənistan hökumətinin tapşırığına əsasən, erməni yepiskopları tərəfindən məbədə qriqoryan kilsəsi statusu verilmişdir ki, bu da Azərbaycanın tarixinə və mədəniyyətinə qarşı Ermənistanın açıq-aşkar soyqırım siyasəti yeritməsindən xəbər verir [4].

Ermənilərin mənimsəməyə cəhd göstərdiyi digər bir məbəd, Azərbaycan xristian memarlığının ən gözəl nümunələrindən hesab olunan Xudavəng monastırı Kəlbəcər rayonunun Vəng kəndinin ərazisində, Tərtərçayın sol sahilində yerləşir. Təməlinin IV əsrdə qoyulduğu ehtimal olunan Xudavəng kompleksinin inşaat işləri, Alban knyazı Vaxtanqın tərəfindən XIII əsrdə həyata keçirilmişdir. 1214-cü ildə knyaz Vaxtanqın arvadı Arzu xatun tərəfindən kompleksin baş kilsəsi inşa olunmuşdur.

1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri işğal etməsindən sonra Xudavəng monastır kompleksi dünyaya erməni abidəsi kimi təqdim olunmuşdur. Şanlı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsindəki qazandığı böyük qələbə nəticəsində, noyabrın 25-dək Kəlbəcəri təhvil verməli olan ermənilər tarixi abidələrə də qəsdən ziyan vurmuşlar. Bu baxımdan Ermənistanın vandallığının qurbanlarından biri də Xudavəng monastırıdır. Ermənilər monastırın xaç daşlarını, qiymətli əşyalarını sökərək qeyri-qanuni şəkildə Ermənistana aparmışlar.

Beynəlxalq konvensiyaları kobud şəkildə pozan ermənilər monastırın tarixini saxtalaşdırmağa cəhd göstərmişlər. Görünüşə görə, erməni ustaları "qədim xaç daşları"nı düzəltmiş, lakin bu işi keyfiyyətli şəkildə yerinə yetirə bilməmişlər. Belə ki, qədim kompleksdəki sujetli relyeflərin, epiqrafiya nümunələrinin və oyma daş bəzəklərinin olması tikilinin tarixi haqqında ətraflı məlumat verir [5].

Ermənilər nəinki tarixi abidələri dağıdırlar, monastırlara aid qiymətli əşyaları da qeyri-qanuni şəkildə Ermənistana aparırlar. Buna sübut olaraq Kəlbəcər rayonundakı Xudavəng monastırının qiymətli əşyalarının qeyri-qanuni şəkildə Ermənistana aparılmasını göstərmək olar. Bununla yanaşı, ermənilər 1954-cü ilin Haaqa Konvensiyasını kobud şəkildə pozaraq abidələri saxtalaşdırır, həmin abidələrdən orjinal yazıları silərək, oğurlayaraq mənimsəməyə və onları "erməni abidələri" kimi qələmə verməyə çalışırlar. Buna sübut olaraq, Kəlbəcərdə ermənilərin saxta "tarix" istehsal edən sexinin aşkarlanmasını göstərmək olar. Məlum olmuşdur ki, ermənilər daşların üzərindəki qədim hərfləri, xaç işarələrini ovaraq formaya salır, həmin "tarixi əsərləri" bir müddət sirkə turşusunda saxlayaraq onlara köhnə görünüş verirmişlər. Daha sonra isə ermənilər dünya ictimaiyyətini aldatmaq məqsədilə həmin saxta xaç daşlarını Dağlıq Qarabağ ərazisində basdırırmışlar [6].

Qeyd etmək lazımdır ki, ermənilər Dağlıq Qarabağdakı digər abidələri də mənimsəməyə cəhd göstərmişlər. Bunlara misal olaraq, Xocavənd rayonundakı Amaras monastırını (IV əsr), Kəlbəcər rayonundakı Gəncəsar monastırını (XIII əsr) və s. göstərmək olar. Ermənilərin Dağlıq Qarabağ ərazisindəki abidələrə əsassız iddialar irəli sürməsinə baxmayaraq, qeyd etmək lazımdır ki, məhz erməni dövləti 428-ci ildə süqut edərək, İranın Sasanilər sülaləsinin hökmranlığı altına düşmüşdür. Erməni dövlətinin müvəqqəti bərpa olunmasının isə Dağlıq Qarabağa heç bir aidiyyatı olmamışdır. Ona görə də Azərbaycanın əzəli Dağlıq Qarabağ ərazisindəki tarixi abidələrin ermənilərə aid olması qeyri-mümkündür.

Ermənilər nəinki Dağlıq Qarabağ ərazisindəki abidələri, həmçinin, gürcü abidələrini də saxtalaşdırmağa çalışaraq özlərinki kimi qələmə verməyə çalışırlar. Bu barədə XIX əsrdə görkəmli rus xadimi V.Veliçko [2], ermənilərin gürcülərin tarixi-arxeoloji abidələrini vicdansız şəkildə taladığını, abidələrdən gürcü yazılarını sildiyini, boşalmış kilsələri zəbt etdiyini, özlərindən

yalan tarix uydurduqlarını, hər bir daşı gürcü çarlığından xəbər verən abidələrin guya qədim erməni abidəsi olduğunu göstərməyə çalışdıqlarını qeyd edir.

Görkəmli gürcü ziyalısı, XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində yaşayıb-yaratmış, "millətin atası" hesab olunan İlya Çavçavadze [3], 1902-ci ildə Tiflisdə dərc etdirdiyi "Erməni alimləri və ağlayan daşlar" adlı əsərində hələ XIX əsrdə erməni yalanlarının bütün Rusiya, Avropa və Qafqazda "ayaq tutub yeridiyindən", onların "Böyük Ermənistan" iddialarından bəhs etmişdir. Çavaçavadze, ermənilərin Qafqaz sıra dağlarından Fərat və Dəclə çaylarının mənsəbinədək Ermənistan adlanan ölkə olmasına dair yalandan and içdiklərini, bu barədə dünyaya car çəkdiklərini qeyd edir.

İlya Çavçavadze, ermənilərin gürcülərə həqarətlə baxdığını, onları rüsvay etdiyini, gürcü xalqını milli ləyaqətdən məhrum etməyə çalışdığını, bir millət kimi yer üzündən silməyə çalışdığını qeyd edir. Onun qənaətinə görə, ermənilər gürcülərin tarixi sərvətlərini məhv edir, onların bütün tarixini, salnamələrini, tarixi abidələrini, qanları bahasına qazandıqlarını, başqa sözlə gürcülərə məxsus olan hər nə varsa hər şeyi öz adlarına çıxarırlar.

"Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər, həmin xəyallarını reallaşdırmaqdan ötrü qonşularının ərazilərini, mədəniyyətini oğurlamaqdan çəkinmirlər. Hər nə qədər özlərini "zəngin mədəni irsə sahiblərmiş" kimi təqdim etsələr də, mütəxəssisləri aldada bilmirlər. Ermənilərin gürcü mədəniyyətini saxtalaşdırmasına dair çoxlu misallar çəkmək olar. Onların bu qəbildən olan təxribatlarına sübut olaraq, armanaira.blogspot.com saytında erməni blogeri tərəfindən yayımlanan "Svetisxoveli və Cvaridəki erməni yazıları" adlı məqaləni qeyd etmək olar. Erməni blogeri öz məqaləsində, ermənilərin müxtəlif vasitələrdən istifadə edərək kilsənin orjinal əlamətlərini sildiyini, başqa sözlə, ermənilərin gürcülərə məxsus tarixi izləri məhv etdiklərini etiraf edir. Belə bir məqamdan isə kilsələrin əslində ermənilərə aid olmamasına dair həqiqət ortaya çıxır. Ermənilər məqsədyönlü şəkildə "abidələri bərpa etmək" bəhanəsi ilə onların üzərindəki gürcü xalqına məxsus tarixi yazıları silir, onları saxta erməni yazıları ilə əvəz edirlər. Erməni blogerinin bəhs etdiyi Muradyan adlı erməni "tədqiqatçısı" gürcülərə qarşı çoxlu əsassız iddialar irəli sürmüşdür. Bu baxımdan, Ermənistan SSR EA-nın İctimai elmlər məcmuəsinin 1971-ci ilin aprel ayında çıxan sayında dərc olunan təxribat xarakterli məqaləsini göstərmək olar. Hamıya məlum bir məsələdir ki, Gürcüstan ərazisində sonluğu - is və -i suffikslərindən ibarət olan bütöv bir toponimlər sistemi mövcuddur. Bu baxımdan Tbilisi, Krtsanisi, Kutaisi, Bolnisi və s. adları sübut olaraq göstərmək olar. Gürcülər tərəfindən yaradılan toponimlər həm linqvistik, həm də ki tarixi nöqteyi-nəzərdən gürcü dilinin normalarına uyğundur. Ancaq saxtakar erməni "tədqiqatçısı" Muradyan öz təxribat xarakterli məqaləsində Aqulis, Alberis, Akvanis, Arnis, Alvanos, Qutemnis, Aksiqoms və Qoris - toponimlərini qeyd edərək, heç bir əsası olmadan Tbilisi, Krtsanisi, Manqlisi, Bolnisi və Dmanisi adlarının guya erməni mənşəli olmasını sübut etməyə çalışır [7].

Gürcüstan ərazisində olduğu kimi Dağlıq Qarabağ ərazisindəki abidələri, o cümlədən müxtəlif tikililəri öz adlarına çıxarmağa cəhd edən ermənilərin - yerkramas.org saytında yayımladıqları [6] "Şuşada ermənilər nə qoyub getmişlər: tarixin xarabalıqları və ya xarabalıqların tarixi" adlı məqalədə Ermənistanın Baş naziri Nikol Paşinyanın etirafı öz əksini tapır. Belə ki, Paşinyanın sözlərinə görə, əhalisinin 90%-i azərbaycanlılardan ibarət olan Şuşanın statusu necə ermənilərə aid ola bilər? Aydın məsələdir ki, Ermənistanın Baş nazirinin dilindən belə bir fikrin səslənməsini ermənilər özlərinə qarşı təhqir hesab edirlər. Ona görə də ermənilər özlərinə haqq qazandırmaq üçün tarixi saxtalaşdırmağa davam edərək heç bir əsası, istinadı olmayan məqalələrlə özlərinə bəraət qazandırır, digər tərəfdən isə təxribat xarakterli fəaliyyətlərə yol verirlər. Möhtərəm Prezidentimiz İlham Əliyev [6] çıxışlarından

birində haqlı olaraq qeyd edir: "Əgər Şuşa şəhəri ermənilərindisə, onda onlar nəyə görə bu şəhəri dağıdıblar? Nə üçün tarixi abidələri qoruyub saxlaya bilməmisiniz? Bütün tarixi abidələr yerlə-yeksan edilmişdir. Əgər bu sizin şəhərinizdisə, onda niyə abidələri dağıtmısız? Orada təkcə məscidlərimiz yox bütün binalar dağıdılmışdır". Qeyd etmək lazımdır ki, 2018-ci ilin oktyabrında armeniasputnik saytında yayımlanan "Tiflisin erməni izini silin: şamlar Gürcüstanın incisini - Şamxoretsos məbədini xilas edəcəkmi?" [6] adlı təxribat xarakterli məqalədə ermənilər Gürcüstanın Tbilisi şəhərində yerləşən, "ermənilərə məxsus olduğunu" iddia etdikləri abidənin dağınıq vəziyyətdə olmasına görə gürcüləri ittiham edirdilər. Bu məqamdan da göründüyü kimi ermənilər əslində özləri həmin abidəni bərbad vəziyyətə salaraq daha sonra günahı gürcülərin üstünə atmağa cəhd göstərirmişlər.

Qeyd edək ki, 2015-ci ilin oktyabrın 18-də gürcü abidələrini mənimsəməyin hesabına məşhur olan saxtakar erməni "tədqiqatçısı" Samvel Karapetyanın [7] Sadaxlı keçid məntəqəsinə daxil olmasına Gürcüstan hökuməti tərəfindən icazə verilməməsi təsadüfi bir hadisə deyildir. Həmin vaxt erməni mətbuatı Samvelə bəraət qazandırmağa çalışmışdı. Belə ki, armenpress informasiya agentliyinin verdiyi məlumata əsasən, Samvel Karapetyan ona qarşı tətbiq olunan qadağanın guya onun "peşəkar fəaliyyəti" ilə bağlı olduğunu bildirmiş, guya Gürcüstanın qanunlarını heç vaxt pozmadığını qeyd etmişdir. Əslində isə Gürcüstan ərazisindəki "erməni memarlığı abidələri"nin mənimsənilməsinin və məhv edilməsinin guya dövlət səviyyəsində təşkil edildiyini iddia edən Samvel Karapetyana qadağanın tətbiq olunması əsassız deyildir. Çünki Samvel Karapetyan əslində gürcü tarixini saxtalaşdırmağa cəhd edir. Gürcülər isə Karapetyanın Gürcüstana daxil olmasına icazə verməyərək, onun tarixi saxtalaşdırmasının qarşısını almışlar.

Qeyd etmək lazımdır ki, qonşularının mədəni irsi hesabına heç bir əsası olmayan "erməni mədəniyyəti"ni aləmə sırımağa çalışan ermənilər daha bir təxribata yol verərək, Şuşada yaratdıqları "xalça muzeyi"ndən 120 xalçanı oğurlayaraq [8] Ermənistana aparmışlar. İrəvanın Memarlıq Muzey-İnstitutunda sərgilənən həmin xalçalar Səfəvilər dövlətinin, Qarabağ xanlığının dövründə toxunmuşdur. Xalçaların 2020-ci ilin noyabrın 1-də "Ford" markalı yük maşını ilə Şuşadan çıxarılmasını qeyd edən muzeyin direktoru Mark Qrirqoryan 120 xalçanın, 45 rəsm əsərinin, 30 keramik qabın Şuşadan Ermənistana aparılmasını etiraf etmişdir ki, bu da açıq-aşkar oğurluq deməkdir. Göründüyü kimi ermənilər Dağlıq Qarabağın mədəni irsini oğurlayaraq öz adlarına çıxarır, hər kəsə guya Ermənistana məxsusmuş kimi təqdim edirlər.

"Böyük Ermənistan" həsrəti ilə yaşayan ermənilərə daha bir tarixi zərbə Azərbaycanla Türkiyənin arasında Şuşada 2021-ci ilin iyunun 15-də Şuşa bəyannaməsinin imzalanması oldu. Bu bəyannamə qardaş Türkiyə ilə Azərbaycanın münasibətlərinin olduqca yüksək bir zirvədə olmasından xəbər verir. Şuşa bəyannaməsi suverenliyin, ərazi bütövlüyünün, müstəqilliyin əldə olunması baxımından böyük əhəmiyyətə malikdir. Məhz Azərbaycanla Türkiyənin birgə təşəbbüsü sayəsində Qafqazda sabitlik və təhlükəsizlik hazırda hökm sürür. Qeyd etmək lazımdır ki, 44 günlük müharibə nəticəsində məğlub olaraq aciz vəziyyətə düşən Ermənistan diz çökmüş, ağ bayraq qaldırmağa məcbur olmuş, kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur. Möhtərəm Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasəti və qardaş Türkiyənin dəstəyi sayəsində Şuşa şəhəri işğaldan azad olundu. Ermənistan aparılan danışıqlar zamanı Dağlıq Qarabağ məsələsini həll etməkdən boyun qaçırdığına görə ərazilərimizin işğaldan azad olunması yalnız müharibə yolu ilə mümkün idi. Ona görə də Ali Baş Komandanımızın sayəsində Azərbaycan Ordusu Ermənistana unuda bilməyəcəyi bir dərs verdi. Döyüş meydanındakı məğlubiyyətinin acısını mülki əhalidən çıxmağa çalışan mənfur düşmən Dağlıq Qarabağda saysız-hesabsız minalar basdırmış, oradakı binaları isə yerlə-yeksan

etmişdir. Bu baxımdan misal olaraq Ağdam şəhərini qeyd etmək olar.

Tarixə nəzər salsaq görərik ki, Şuşa şəhərinin əsası 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulmuşdur. Şuşada yaşayan əhalinin 98%-nin həmyerlilərimizdən ibarət olması faktı, Dağlıq Qarabağın ümumiyyətlə ermənilərə aid olmamasını bir daha sübut edir. Ona görə də Ermənistan bizə qarşı hər hansı bir revanş niyyətində olmamalıdır. Əks halda Ali Baş Komandanımız İlham Əliyevin də qeyd etdiyi kimi Ermənistanın yeni cəhdinin qarşısı Azərbaycan Ordusu tərəfindən sərt bir şəkildə alınacaq.

ƏDƏBİYYAT SİYAHISI
(References)

1. Ermənilər Azıx mağarasında qanunsuz fəaliyyətləri ilə UNESCO–nun konvensiyalarını kobud şəkildə pozublar /29.03.2021/ http://science.gov.az/ru/news/open/16463/
2. Василий Львович Величко. «Кавказ” http://iravan2018.com/ru/history/4/39
3. Vahid Ömərov, Elnur Kəlbizadə, Samirə Həbibbəyli, Naziyə Məmmədova, Kamal Salayev. “Gürcüstan: İnzibati-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası”, “MTM-İnnovation” MMC. Bakı. 2019. 320 səh.
4. Nahid Məmmədov. “İşğal altındakı tarixi-dini abidələrimiz”, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı. 2015, 96 səh. http://www.qafqazislam.com/userfiles/Abideler.pdf
5. Ermənilərin növbəti vandallığı: Xudavəng kompleksini dağıdır, əşyaları söküb Ermənistana aparırlar /16.11.2020/ http://www.aztv.az/az/news/10370/ermenilerin-novbeti-vandalligi-xudaveng-kompleksini-dagidir-esyalari-sokub-ermenistana-aparirlar
6. Kamal Salayev. Ermənilər hansı yollarla Gürcüstanda təxribat törədirlər? /19.02.2021/ https://www.azpress.az/index.php?lang=az&sectionid=news&id=104807
7. Kamal Salayev. Ermənilər Gürcüstanın bu kilsələrini mənimsəməyə cəhd edir /21.06.2020/ https://aktor.az/?p=37218
8. Ermənilərin Şuşadan oğurlayıb İrəvana apardığı Qarabağ xalçaları /19.05.2021/ https://konkret.az/ermenilerin-susadan-ogurlayib-irevana-apardigi-qarabag-xalcalari-fotolar/